

# AZƏRBAYCAN RESPUBLİKASININ KORRUPSİYAYA QARŞI MÜBARİZƏ ÜZRƏ KOMİSSİYASI



**“Korrupsiyaya, rüşvətxorluğa qarşı ən ciddi mübarizə aparılır və aparılacaqdır. ”**

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı nitqindən.*

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezindenti

Bakı şəhəri, 9 oktyabr 2018-ci il

**Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə komissiyası** (bundan sonra "Komissiya) 13 yanvar 2004-ci tarixli "Korrupsiyaya qarşı mübarizə haqqında"Azərbaycan Respublikası Qanununun 4.2-ci maddəsinə uyğun olaraq yaradılmışdır və korrupsiyanın qarşısının alınması sahəsində ixtisaslaşmış orqan funksiyalarını həyata keçirir.

Komissiyanın səlahiyyətləri Azərbaycan Respublikasının 3 may 2005-ci il tarixli Qanunu ilə təsdiq edilmiş Əsasnamə ilə müəyyən olunur.

## Komissiyanın vəzifələri:

1. korrupsiyaya qarşı mübarizə sahəsində dövlət siyasətinin formalaşdırılmasında iştirak etmək
2. bu sahədə dövlət orqanlarının və digər qurumların fəaliyyətini əlaqələndirmək
3. korrupsiyaya qarşı mübarizənin vəziyyətini və səmərəliliyini təhlil etmək
4. korrupsiyaya qarşı mübarizə üzrə dövlət proqramlarının icrasına nəzarəti həyata keçirmək
5. "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 5.1-ci maddəsində nəzərdə tutulan maliyyə xarakterli məlumatları qəbul etmək və bu məlumatların təqdim edilməsinə nəzarəti həyata keçirmək
6. korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumatları toplamaq, təhlil etmək, ümumiləşdirmək və müvafiq dövlət orqanlarına təkliflər vermək
7. korrupsiyaya qarşı mübarizə sahəsində dövlət orqanları və digər qurumlarla əməkdaşlığı həyata keçirmək

**Komissiyanın strukturu:**

Komissiya 15 nəfər üzvdən ibarət tərkibdə təşkil edilir və fəaliyyət göstərir:

5 üzv-Azərbaycan Respublikasının Prezidenti
5 üzv-Azərbaycan Respublikasının Milli Məclisi
5 üzv-Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi




Komissiyanın fəaliyyətinə rəhbərliyi və işinin təşkilini **Komissiyanın sədri** həyata keçirir. Komissiyanın sədri onun tərkibindən Komissiya üzvlərinin sadə səs çoxluğu ilə seçilir. Komissiyanın nəzdində daimi fəaliyyət göstərən Katiblik mövcuddur. Katibliyin rəhbəri Komissiyanın qərarı ilə, digər işçiləri isə Komissiyanın sədri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir.

Komissiyanın tərkibində müxtəlif dövlət və qeyri-hökumət təşkilatlarının nümayəndələrindən ibarət işçi qruplar fəaliyyət göstərir.

Bu qruplar arasında Komissiyanın 8 iyul 2005-ci il tarixli qərarı ilə təsdiq edilmiş Qanunvericiliyin təkmilləşdirilməsi üzrə işçi qrup mühüm yer tutur. İşçi qrup "Korrupsiyaya qarşı mübarizə haqqında" Qanunun, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq konvensiyaların və digər bu səviyyəli sənədlərin tətbiqi ilə əlaqədar Azərbaycan Respublikası qanunvericiliyinin, o cümlədən korrupsiyaya qarşı mübarizə sahəsində qanunvericiliyin inkişaf etdirilməsi və beynəlxalq standartlara uyğun olaraq təkmilləşdirilməsi, habelə qanunvericiliyin təhlili əsasında korrupsiyanın qarşısının alınmasına və ona qarşı mübarizənin səmərəliliynin təmin olunmasına yönəlmiş qanun layihələrinin hazırlanması, qanun layihələrinə və digər məsələlərə baxılması və rəy verilməsi, qanun layihələrin təkmilləşdirilməsi ilə bağlı təkliflərin hazırlanması istiqamətində fəaliyyət göstərir.

## KOMİSSİYANIN ƏSAS HÜQUQLARI

korrupsiyaya qarşı mübarizə haqqında qanunvericiliyin icra vəziyyətini öyrənir və ümumiləşdirir, bu barədə hüquq mühafizə və digər dövlət orqanlarının rəhbərlərinin məlumatlarını və hesabatlarını dinləyir;

dövlət və yerli özünüidarə orqanlarından zəruri məlumatları və materialları

korrupsiyaya qarşı mübarizə üzrə dövlət proqramlarında nəzərdə tutulan tədbirlərin yerinə yetirilməsi barədə müvafiq dövlət orqanlarından məlumatları alır və görülən işlərin vəziyyətini təhlil edir;

korrupsiyaya qarşı mübarizənin səmərəliliyinin artırılması, həmçinin korrupsiyaya qarşı mübarizə sahəsində müəyyən edilmiş nöqsanların aradan qaldırılması üçün təklif və tövsiyələr hazırlayır, onların həyata keçirilməsi üçün tədbirlər görür;

korrupsiya ilə bağlı ictimai rəyin öyrənilməsi və korrupsiyaya qarşı mübarizə sahəsində maarifləndirmənin həyata keçirilməsi üçün tədbirlər görür;

qeyri-hökumət təşkilatları, kütləvi informasiya vasitələri və özəl sektorun nümayəndələri, müstəqil ekspertlər ilə əməkdaşlıq edir və zərurət olduqda onları müəyyən işlərin görülməsinə cəlb edir;

korrupsiyaya qarşı mübarizənin təşkili və səmərəliliyinin artırılması üçün beynəlxalq əməkdaşlığın həyata keçirilməsində iştirak edir;

daxil olan korrupsiya ilə əlaqədar hüquqpozmalar haqqında müraciətlərin ümumiləşdirilməsini həyata keçirir, habelə onun nəticələrinə əsasən fəaliyyətinə dair daha çox şikayətlərin daxil olduğu dövlət və ya bələdiyyə orqanlarının, habelə dövlət müəssisələrinin fəaliyyətinin yoxlanılmasını dövlət orqanlarına və ya auditor təşkilatlarına həvalə edir və cinayət əlaməti olan hüquqpozmalar aşkar edildikdə yoxlama materiallarını Azərbaycan Respublikasının Baş Prokurorluğuna göndərir;

korrupsiyaya qarşı mübarizə haqqında qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı təkliflər verir.

korrupsiyaya qarşı mübarizə məsələləri ilə əlaqədar proqramların və layihələrin hazırlanması və həyata keçirilməsi üçün qeyri-hökumət təşkilatlarına maliyyə yardımı göstərir.

## KOMİSSİYANIN FƏALİYYƏTİ

**Komissiya tərəfindən hazırlanmış dövlət proqramları**

"Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Proqramı" (2004-2006-cı illər)

"Şəffafliğın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya" və onun həyata keçirilməsi ilə bağlı 2007-2011-ci illər üçün Fəaliyyət Planı

"Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər Milli Fəaliyyət Planı"

"Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"

Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı

Dünya Bankının İnstitutunun İdarə olunması və Korrupsiyaya Qarşı Mübarizə

Dünya Bankı Korrupsiyaya Qarşı Mübarizə Dərnəyi

**Beynəlxalq əməkdaşlıq:**

Komissiya aşağıdakı beynəlxalq qurumlarla əməkdaşlıq edir:

1. Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi (UNODC);

2. Avropa Şurasının Korrupsiyaya qarşı mübarizə aparan Dövlətlər Qrupu (GRECO);

3. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya üzrə Antikorrupsiya Şəbəkəsinin İstanbul Fəaliyyət Planı;

4. Avropa Şurası;

7. Transparency İnternational;

8. Açıq Hökumət Tərəfdaşlığı (OGP);

9. Parlament üzvlərinin Korrupsiyaya qarşı Qlobal Təşkilatı (GOPAC);

10. Mədən Sənayesində Şəffaflıq Təşəbbüsü (EİTİ);

11. Beynəlxalq Anti-korrupsiya Akademiyası (IACA).

# KORRUPSİYAYA QARŞI MÜBARİZƏDƏ ƏLDƏ EDİLMİŞ MÜHÜM NAİLİYYƏTLƏR BEYNƏLXALQ QURUMLAR TƏRƏFİNDƏN YÜKSƏK QİYMƏTLƏNDİRİLMİŞDİR

İxtisaslaşmış beynəlxalq təşkilatlar və digər ölkələrin hüquq-mühafizə orqanları ilə əlaqələrin daha da genişlənməsi və ölkəmizin. Beynəlxalq əməkdaşlıq sahəsində görülmüş işlərin məntiqi nəticəsi olaraq, Avropa Şurasının  Pulların yuyulmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı tədbirlərin qiymətləndirilməsi üzrə Ekspertlər Komitəsininin (MONEYVAL) 57-ci plenar iclası çərçivəsində cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində ölkəmizin IV raund qiymətləndirilməsi üzrə növbəti tərəqqi hesabatı dinlənilməklə, Azərbaycan Respublikasında bu sahə beynəlxalq səviyyədə mövcud standartlara tam cavab verən sistem kimi qiymətləndirilmiş, MONEYVAL-ın tövsiyələrinin ölkəmiz tərəfindən müvəffəqiyyətlə yerinə yetirildiyi qənaətinə gəlinmişdir. Bu sahədə dövlət siyasətinin vahid çərçivədə icrası məqsədilə Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti yaradılmış, fəaliyyəti təmin edilmiş və Maliyyə Monitorinq Xidməti Eqmont qrupa üzv olmuşdur.



Xüsusilə qeyd olunmalıdır ki, korrupsiyaya cinayətləri və cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması ilə mübarizə, o cümlədən MONEYVAL-ın tövsiyələrinin icrası ilə əlaqədar dövlət qurumlarının fəaliyyətini əlaqələndirən qurum kimi Korrupsiyaya qarşı Mübarizə üzrə Komissiyanın iştiakı ilə sözügedən sahələrdə beynəlxalq standartlara cavab verən institusional, qanunvericilik və inzibati tədbirlər uğurla icra edilmişdir. Belə ki, Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı dövlət orqanları tərəfindən icra vəziyyəti 89% müəyyən edilmişdir.

**Vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlıq**

Komissiya Korrupsiyaya qarşı mübarizə aparan qeyri-hökumət təşkilatlarının Məlumat və Əməkdaşlıq Şəbəkəsinə üzv olmuşdur. Korrupsiyaya Qarşı Mübarizə Aparan QHT-lərin Məlumat və Əməkdaşlıq Şəbəkəsi 2005-ci ildə Azərbaycanda korrupsiyanın qarşısının alınması və şəffaflıq istiqamətində fəaliyyət göstərən bir qrup yerli qeyri-hökumət təşkilatlarının səylərini səfərbər etməklə korrupsiyaya qarşı mübarizə aparılması məqsədilə yaradılmışdır.

Şəbəkə və Komissiyanın iştirakı ilə Açıq hökumətin təşviqi üzrə və Korrupsiyaya qarşı mübarizəyə dair Azərbaycan Respublikasının Milli Fəaliyyət Planlarının (2016 - 2018-ci illər) layihəsi üzrə çoxsaylı müzakirələr aparılmış, vətəndaş cəmiyyəti institutları da Planların təkmilləşdirilməsi prosesinə cəlb edilmişlər.

Bundan başqa, Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın tərkibində fəaliyyət göstərən işçi qrupların tərkibinə vətəndaş cəmiyyəti və beynəlxalq təşkilatların nümayəndələri cəlb edilmişlər. Komissiyanın nümayəndələri mütəmadi olaraq vətəndaş cəmiyyəti nümayəndələri ilə birgə dəyirmi masalar, konfrans və seminarlar, ictimai dinləmələrdə iştirak edirlər.

# AÇIQ HÖKÜMƏTİN TƏŞVIQİNƏ DAİR HÖKÜMƏT-VƏTƏNDAŞ CƏMİYYƏTİ DİALOQU PLATFORMASI



Prezident yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası 2018-ci ilin sentyabrın 10-da “Açıq Hökumət tərəfdaşlığı, Hökumət-Vətəndaş Cəmiyyəti dialoq platforması” təsis yığıncağını keçirmişdir. Yığıncaqda Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin, Ədliyyə, Vergilər, Maliyyə nazirliklərin, Azərbaycan Respublikasının Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyası və qeyri-hökumət təşkilatlarının nümayəndələri iştirak etmişlər.

Platforma informasiya əldə etmək, ictimai iştirakçılıq üzrə Azərbaycan hökuməti və Milli Məclislə əməkdaşlıq etmək, “Açıq Hökumət” Tərəfdaşlığı Təşəbbüsü çərçivəsində Azərbaycan hökumətinin hazırladığı Fəaliyyət Planının həyata keçirilməsinin monitorinqini aparmaq, özəl sektor təmsilçiləri ilə əməkdaşlıq həyata keçirmək və elektron hökuməti təşviq etmək istiqamətlərində fəaliyyət göstərə-cək.

Tədbirdə “Hökumət-Vətəndaş Cəmiyyəti Dialoq Platforması”nın yaradıldığı elan edilmiş, platformanın reqlamenti qəbul olunmuşdur. Reqlamentə əsasən, platforma-nın iclasları iki ayda bir dəfədən az olmamaq şərtilə koordinator tərəfindən çağırılır. Əliməmməd Nuriyev platformanın koordinatoru seçilmişdir.




Sonda Açıq Hökumətin Təşviqinə Dair Hökumət -Vətəndaş Cəmiyyəti Dialoqu Platformasının yaradılması barədə MEMORANDUM imzalanmışdır.

Hazırda Azərbaycan Açıq Hökumət Platformaısı pzündə 10 dövlət qurumu, parlament təmsilçisi  və 44 QHT-ni birləşdirir.

## AZAKA




Azərbaycan Antikorrupsiya Akademiyası (AZAKA) korrupsiyanın qarşısının alınmasında təhsilin rolu və imkanlarını daha geniş tətbiq etmək üçün yaradılmış qeyri-hökumət təşkilatıdır. Məqsəd korrupsiya qarşı mübarizə üzrə ictimai məlumatlandırmanı artırmaq, bu sahəyə marağı olan şəxslərin biliklərinin artırılması üçün imkanlar təmin etmək, peşəkar müzakirə və araşdırmalar üçün platforma yaratmaq və sağlam antikorrupsiya mühitinin formalaşdırılmasına töhfə verməkdir. AZAKA-nın təhsil-tədris proqramları ictimai mühazirələr, qısa və uzun müddətli təlim proqramları, silsilə seminarlar və iştirakçıların tələb və ehtiyaclarına uyğunlaşdırılmış xüsusi proqramlar olmaqla korrupsiyaya qarşı mübarizənin bütün istiqamətlərini əhatə edir. AZAKA eyni zamanda korrupsiyaya qarşı mübarizə üzrə araşdırmaların və təkliflərin hazırlanmasını həyata keçirir, bu sahədə ixtisaslaşan beynəlxalq qurumlar və analitik mərkəzlərlə sıx əməkdaşlıq edir.

## *Anti-korrupsiya və etik davranış qaydaları ilə bağlı təlimlər keçirilmişdir*

2018-ci ilin yanvar ayında Masallı, Bərdə, Qəbələ, Quba və Sabirabad rayonlarında keçirilən təlimlərdə 120-dən çox dövlət qulluqçusu iştirak edib və əsas mövzu "Etik davranış və korrupsiyaya qarşı mübarizə texnikaları" olub.

Təlimlər çərçivəsində iştirakçılara düzgün dövlət idarəçiliyi, etik davranış qaydaları, səmərəli xidmət mədəniyyətinin əsas şərtləri, ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən institusional və qanunvericilik islahatları, o cümlədən korrupsiyaya qarşı mübarizə texnikaları: şəffaflıq, ictimai nəzarət, hüquqi maarifləndirmə, onlayn və real mübarizə metodları barədə seminarlar keçirilib. İştirakçılar qruplar formasında korrupsiyanın qarşısının alınması üzrə keyslərdə aktiv iştirak edib və təqdimatlar ediblər.

Qeyd edək ki, AZAKA tərəfindən 2018-ci ildə dövlət qulluqçuları, hüquq mühafizə orqanlarının əməkdaşları, ədliyyə qulluqçuları, özəl sektorun nümayəndələri, tələbələr və digər hədəf qruplar üçün çoxsaylı təlim xarakterli tədbirlər keçirmişdir. Korrupsiyaya qarşısının alınması sahəsində təhsillin rolunun artırılması məqsədilə "Azərbaycan Anti-Korrupsiya Akademiyası" layihəsi çərçivəsində dövlət qurumlarının 800-dən çox əməkdaşına 60-dan çox təlim keçirilmişdir.

Bundan başqa AZAKA tərəfindən ilk dəfə olaraq ölkəmizdə "Beynəlxalq Şəffaflıq" təşkilatının "Beynəlxalq Korrupsiya Barometri" əsasında Milli Korrupsiya Barometeri hazırlanıb və 2500 vətəndaş vətəndaş arasında sorğu keçirmişdir.

## *Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası Yay Məktəbi keçirilmişdir*

Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının dəstəyi ilə Azərbaycan Antikorrupsiya Akademiyası (AZAKA) tərəfindən 2017-ci ili 8-12 avqust tarixlərində Antikorrupsiya Yay Məktəbi keçirilmişdir.

Yay Məktəbinin əsas məqsədi gənclərin korrupsiya ilə mübarizə sahəsində bilik və bacarıqlarını artırmaq və onları AZAKA-nın fəaliyyətinə cəlb etməklə gələcək layihələrdə bu gənclərin də aktiv iştirakını təmin etməkdir. Yay Məktəbi çərçivəsində tədbir iştirakçılarının korrupsiya ilə mübarizə, eləcə də təlimçilərin təqdimatında həlledici rol oynayan auditoriya qarşısında çıxış etmək və nitq bacarıqlarını inkişaf etdirən təlimlər də keçirilmişdir.

Yay Məktəbi çərçivəsində Baş Prokuror yanında Korrupsiyaya qarşı mübarizə Baş İdarəsinin böyük prokuroru Elnur Musayevin təqdimatında "Etika" mövzusunda təlim keçirilmişdir. Bundan başqa, E. Musayevin təqdimatında "Korrupsiyanın kriminallaşdırılması" mövzusunda təqdimat da keçirilmişdir. Təlimin ardından Yay Məktəbi iştirakçıları 4 mövzu üzrə qrup şəklində müzakirələrdə fəal iştirak etmişlər.

Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının katibi Kamal Cəfərovun Yay Məktəbi çərçivəsində "Korrupsiyaya qarşı mübarizədə nailiyyətin 10 ili: Azərbaycan təcrübəsi" adlı təqdimatı keçirilmişdir.

Layihənin ilk mərhələsində iştirakçılar korrupsiya və onunla mübarizə sahəsində maarifləndirici təlimlərdə, praktiki məşğələlərdə və oyunlarda iştirak etmişlər, sonda isə iştirakçıların hazırladıqları təkliflər əsasında "Milli Fəaliyyət Planı" müzakirə olunmuşdur. “Şəffaflıq Azərbaycan” ictimai birliyinin əməkdaşı Məhəmməd Muradov "Biznes sektorunda korrupsiya" mövzusunda mühazirə oxumuşdur.

Antikorrupsiya Yay Məktəbi cari ilin 12 avqust tarixində uğurla başa çatmış və iştirakçılara təlimi bitirdiklərinə dair sertifikatlar təqdim edilmişdir.

AZƏRBAYCAN RESPUBLİKASININ KORRUPSİYAYA QARŞI MÜBARİZƏ ÜZRƏ KOMİSSİYASI

14

*Məlumat kitabçası*
*Azərbaycan Respublikasının Baş prokuroru yanında*
*Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi*
*tərəfindən hazırlanmışdır.*

*Bakı-2019*

**Əlaqə:**

İstiqlaliyyət küçəsi 19, Bakı şəhəri,
Azərbaycan Respublikası, AZ 1066
**Tel:** (+994 12 492 04 65)
**Faks:**(+994 12 492 04 65)

**e-mail:** office@ commission-anticorruption.gov.az
www.antikorrupsiya.gov.az
www.commission-anticorruption.gov.az